***Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursuna qəbul üçün tələb olunan sənədlər və qovluğun hazırlanma qaydası***

AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ

# *Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursuna qəbul üçün tələb olunan sənədlər*

MAHHXHQ-ların hazırlığı kursuna qəbul olmaq istəyən namizədlər aşağıda qeyd olunan sənədləri hazırlamalı və sıra ardıcıllığı ilə kağız qovluğa yerləşdirməlidir:

1. **Ərizə (Qeyd 3-ə bax)**
2. **Anket forması (Qeyd 3-ə bax)**
3. **Tərcümeyi-hal (1 nüsxədə)**
4. **Təhsil haqqında sənədin surəti (1 nüsxədə)**
5. **Doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə)**
6. **Yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə)**
7. **Əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və.s.)**
8. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə)**
9. **Sürücülük vəsiqəsinin surəti (əgər varsa, 1 nüsxədə)**
10. **Nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə)**
11. **Həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə)**
12. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm, 2 ədəd 4.5x6 sm və 3 ədəd 9x12 sm)**
13. **Hərbi biletin bütün vərəqlərinin notariat qaydada təsdiq olunmuş surəti (1 nüsxədə)**
14. **Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar**

**Qeyd:** 1. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna ümumtəhsil müəssisələrində ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər qəbul edilirlər.

2. Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə) və "q" bəndinə (ştat ixtisarına görə) əsasən ordu sıralarından ehtiyata buraxılmış 40 yaşı tamam olmayan hərbi vəzifəlilər müddətdən artıq həqiqi hərbi xidmətə cəlb olunmaq üçün müraciət edə bilər.

3. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna qəbul olmaq istəyən namizədin "Ərizə" və "Anket" nümunələri "Şəxsi kabinet"də olan "Sənədlər" bölməsində mövcuddur.

4. Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.